

VƏFA MÜRSƏLQIZI

## SEVMƏ!

Şəklimi tikə-tikə,
Sovur küləyə, sevmə!
Mən şeytanam, bənzədib
məni mələyə, sevmə!

Mənim üçün öl, bir də
Oda düşək gəl bir də,
Qoyma səni xəlbirdə,
Həyat ələyə, sevmə!

Vüsalımız arzudur,
Düzüm yalanım budur,
Vallah olanım budur,
Mən də beləyəm, sevmə!

## SEVGİ

Sən məni ağlatma, yaz yağışıtək,
Ələnər üstünə bir ətək, sevgi!
Bizim başımızı yaman fırladıb,
Bu iki adamlıq yelləncək, sevgi.

Dünyanın gərdişi gəlməz eyninə,
Kim desə, nə desə girməz beyninə,
Ən çətin anında qonar çiyninə,
Titrək əllərimtək kəpənək sevgi.

İzn ver dincəlim bir az yorğunam,
Bir az kədərliyəm, bir az qırqınam,
Təpədən dırnağa sənə vurğunam,
Dünya görməyibdir mənimtək sevgi.

Görcək əzizimi, mehribanımı,
Gizlədə bilmirəm həyəcanımı,
İlahi, nə olar tez al canımı,
Demə məndən qabaq öləcək sevgi!

## ÖLƏNƏCƏN HƏMİN ÇƏKƏR

Nə günəş qalıb nə də ay,
Dünya qaranlıqdı daha,
İç bu vüsalı doyunca,
Hər şey bir anlıqdı daha.

Təşnə oldum, lal buludlar,
Üstümə yağmadı, getdi,
Sən tərəfdən doğan günəş,
Bu səhər doğmadı, getdi.

Həyat mənə nə verdi ki,
Mənasız öyüddən başqa?
Mən həyatdan nə istədim,
Bir ovuc ümiddən başqa?

Sən həyatdan şirinmişsən,
Necə keçim, necə doyum?
Yer üzündə yer tapmıram,
Alım səni hara qoyum?

Həsrəti dəmə qoymuşuq,
Bir ömürə dəmin çəkər,
Dur başlayaq ayrılmağa,
Ölənəcən həmin çəkər.

## BƏRAƏTİMSƏN MƏNİM

Həyatımın sonuncu baharında gizlənən,
Səadətimsən mənim,
Bu dərdli ürəyimin, qubarında gizlənən,
Məhəbbətimsən mənim.

Mən elə təmiz idim, elə ağappaq idim,
Ömrümün bu yaşında elə bil uşaq idim,
Sənə rast gələnəcən mən elə qorxaq idim,
Cəsarətimsən mənim.

Soyuqda isinirəm oduna ataş kimi,
Sitayiş eləyirəm adına ataş kmi,
Hər səhər boylanırsan üzümə günəş kimi,
Təbiyyətimsən mənim.

Bir qum dənəsi kimi səhrada itib gedər,
Ruhum xəyallarının əlindən tutub gedər,
Sənsiz bütün sevgilər gözümdə bitib gedər,
Nəhayətimsən mənim.

Savab necə olurmuş, günaha göstərəcəm,
Min dərdimi tökəcəm bir aha, göstərəcəm,
Sənə olan sevgimi Allaha göstərəcəm,
Bəraətimsən mənim.

## GÖZ ÖNÜNDƏ

Məni bənd-bənd öldürürsən.
Əza-əza basdırırsan,
Taleyimi, qismətimi,
Yaza-yaza basdırırsan.

Guya hərdən əfv eləyib,
Sonra bir də səhv eyləyib,
Bir sözünlə məhv eyləyib,
Büküb sözə basdırırsan.

Qul oldum sözün önündə,
Yol azdım izin önündə,
Ölürəm gözün önündə,
Dözə-dözə basdırırsan.

## SƏNİN GÜLÜŞÜN

Sən elə gözəl gülürsən,
Mənim ağlamağım gəlir,
Gülüşündən bircə ovuc
Alıb saxlamağım gəlir.

Gülüşlərin çiçək-çiçək,
Yolda qalsın, izdə qalsın,
Sən onsuz da gedəcəksən,
Gül, gülüşün bizdə qalsın.

Yazda gəlib qışda dönmək,
Asandır elə bilirsən?
Bu boyda qəmin içində,
Nə qəşəng gülə bilirsən.

Güləndə ağac olursan,
Bahar çağı gül-gül əsən,
Gülüşünə qurban olum,
Təki həmişə güləsən.

Gül mənim də əvəzimə,
Mən bacarsam hay verəcəm,
Gülüşümü harda tapsam,
Alıb sənə pay verəcəm.

## EŞQİNƏ

Hərə bir cür layla çalır,
Çalır bəxti kəm eşqinə,
Qollarını qələm etdi,
Qərib Şahsənəm eşqinə.

Gəl deyim qırıq baxdımdan,
Dünyanın qərib vaxtından,
Neçə zil endi taxtından,
Bir yaralı bəm eşqinə.

Özüm ağrım. özüm qadam,
Mən özüm özümə yadam,
Məni dindirmə, ay adam,
Gözümdəki nəm eşqinə.

Tanrım, bir günaha batdım.
Murad aldım, murad satdım,
Pərvanətək oda atdım,
Ruhumu sitəm eşqinə.

Vida günü öp gözümdən,
Taqətim getdi dizimdən,
Keçdim yolumdan, izimdən,
İkicə qədəm eşqinə.

Bağrım başın köz yazmışam,
Nə yazmışam az yazmışam,
Kitab-kitab söz yazmışam,
Bircə ovuc qəm eşqinə.

## BİR AZCA

Mən də sənin dərddəyəm,
Gül, böyüyək bir azca,
Gözlərinin yaşını,
Sil, böyüyək bir azca.

Döz ağrına, acına,
Ağ telinin gücünə,
Çəkmə daha saçıma,
Əl, böyüyək bir azca.

Dərd könül vərdişidir,
İçimizi üşüdür,
Sevgi uşaq işidir,
Gəl böyüyək bir azca.